# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Əlaqələndirmə Qərargahı Xocavənd şəhərində iclas keçirib**



2

# Din dövlət və siyasət kontekstində - QƏRƏZLİ HESABATA CAVAB



2


SƏS

№ 024 (7434)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

17 mart 2026-cı il.
Qiyməti 1 manat


# Yeni dünya nizamı: yeganə seçim III Dünya müharibəsidirmi?



7

**İlaxır çərşənbəsi**




4

**İranda müharibə, neftin qiyməti fontan vurur – qazanan Trampdır...**



4

**Bu şəxslər 2 min manatadək cərimə EDİLƏCƏKLƏR**



8

## Toy qiymətinə yas süfrəsi – qiymət bahalaşmasının səbəbi nədir?



6

## Ramazan namazı bu tarixdə qılınacaq



8

# Din dövlət və siyasət kontekstində - QƏRƏZLİ HESABATA CAVAB



*ABŞ Beynəlxalq Dini Azadlıq Komissiyasının Azərbaycanla bağlı son hesabatı qərəzin açıq nümayişidir. Çünki Azərbaycan özünün dini tolerantlıq modeli ilə dünyada örnək ölkələrdən biridir*

Bu qərəzli hesabatda qeyd olunur ki, guya Azərbaycanda bəzi dini icmalar, məzhəb və təriqət mənsubları təzyiqə məruz qalırmış. Halbuki, bunun belə olmadığını hamı bilir və bunu iddia edən də yoxdur. Faktiki olaraq, Azərbaycanda dini tolerantlıq hökm sürür və hansısa inancı seçdiyinə görə heç kimə problem yaradılmır. Dünyəvi dövlət olaraq sivil, demokratik bir cəmiyyətə malik Azərbaycanda hüquqa söykənən idarəçilik var. Azərbaycanda dini etiqad, vicdan azadlığı təmin olunub, hər bir şəxsin hüquq və azadlıqlarına ölkə Konstitusiyası və dövlət tərəfindən təminat verilir. Dini qurumların qanunla qadağan olunmayan fəaliyyətlərini həyata keçirmək üçün hər hansı məhdudiyyət tətbiq olunmur.

Bununla yanaşı, bəzi dindarların fəaliyyəti, onların əməlləri islam dininin qanunlarına, milli-mənəvi dəyərlərimizə, əxlaq normalarımıza ziddir və vətəndaşlarda dinə qarşı mənfi münasibətin formalaşmasına şərait yaradır. Üstəlik, belə qüvvələr dövlətçiliyimiz üçün də ciddi problem yaradır. Lakin buna baxmayaraq, onlara da dözümlülük göstərilir, heç bir problem yaradılmır.

Azərbaycanda dövlət dini icmaların rahat fəaliyyəti üçün hər cür imkanlar yaradır. Onların maliyyə vəsaitləri ilə, avtomobillə təmin olunmasını, dini məbədlərin tikilməsi və təmirini dövlət öz üzərinə götürüb. Bu, dünyada çox az ölkədə belədir. Lakin dövlətin bu qayğısından bəziləri başqa məqsədlər üçün istifadə etməyə çalışır ki, bu da yolverilməzdir. Hər bir dini icma mənsub olduğu ölkənin, xalqın mənafeyini üstün tutmalıdır, nəinki xarici mərkəzlərin sifarişi ilə neqativ əməllərlə məşğul olmağı. Heç kim dininə və əqidəsinə görə təzyiqlərə məruz qalmır, dini mənsubiyyətə görə ayrı-seçkilik aparılmır. Təsadüfi deyil ki, artıq ölkəmiz özünün dövlət-din münasibətləri modeli ilə təkcə yerləşdiyi coğrafi regionun deyil, dünyanın ən yaxşıları sırasındadır. Azərbaycanda yaradılmış tolerant durumdan yararlanan bəzi qüvvələr öz çirkin məqsədlərini həyata keçirməyə çalışırlar. Əminliklə demək olar ki, qanunazidd əməllərlə məşğul olan belə qrupların dinlə heç bir əlaqələri yoxdur. Onlar xarici siyasi qüvvələrin buradakı ruporu olmağın müqabilində maliyyə vəsaiti ilə təmin olunur və təlimatlandırılırlar.

Ölkədə radikal dindarlığın və mövhumatın güclənməsində bəzi başqa qonşu ölkələrin və Qərb dairələrinin də böyük rolu var. Hər bir böyük dövlət hansısa dini icmadan öz siyasi məqsədləri üçün istifadə etməyə çalışır. Radikal dindarların tabe olduğu siyasi-ideoloji mərkəzlər onların vasitəsilə cəmiyyətdə parçalanma və qarşıdurmalar yaratmağa cəhd edirlər. Belə dini icmaların arxasında xarici dövlətlərin kəşfiyyat orqanların dayanması sirr deyil.

Dövlət Təhlükəsizlik Xidmətinin son günlərdə din pərdəsi altında gizlənmiş agentura şəbəkəsini ifşa etməsi bəzilərinə dərs olmalıdır. Anlamalıdırlar ki, Azərbaycan, dövləti möhkəm, cəmiyyəti sağlam bir ölkədir. Azərbaycan monolit dövlət, vahid xalq, tolerant cəmiyyət modelini seçib və bu yoldan dönməyəcəyini ortaya qoyub. Azərbaycanda xalq və dövlət arasında qırılmaz bağlar var ki, bunu heç bir daxili və xarici qüvvə qoparmaq iqtidarında deyil.

Azərbaycan hüquqi, demokratik inkişaf yolu ilə sürətlə irəliləyən ölkədir və hər hansı dini qrupların, onların xarici havadarlarının sabitliyi pozmaq, əhali arasında çaxnaşma yaratmaq, din adından istifadə edib öz bəd niyyətlərini həyata keçirmək cəhdləri heç bir səmərə verməyəcək. Bütün dünyada olduğu kimi, Azərbaycanda da, başqa dinlərə (xristianlıq, buddizm, zərdüştlük, iudaizm, krişnaizm və s) inananlar, hətta ateistlər və ya deistlər var və onlar əhalinin önəmli bir hissəsini təşkil edirlər. Bəziləri hətta, dini ekstremizm fəaliyyətindən çəkinmir, açıq radikal çıxışlar edir, özlərinə tərəfdar toplamağa çalışır, dindar, mömin pərdəsi altında dünyagörüşü hələ tam formalaşmamış gənclərdən, sıravi vətəndaşlardan sui-istifadə edir, onları dövlətə qarşı yönəltmək istəyirlər. Lakin, cənab Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan monolit dövlət, vahid xalq, tolerant cəmiyyət modelini seçib və bu yoldan dönməyəcəyini ortaya qoyub. Azərbaycanda xalq və dövlət arasında qırılmaz bağlar var ki, bunu heç bir daxili və xarici qüvvə qoparmaq iqtidarında deyil.

***Elçin Bayramlı***

# Əlaqələndirmə Qərargahı Xocavənd şəhərində iclas keçirib







***Əlaqələndirmə Qərargahının növbəti iclası Xocavənd şəhərində keçirilib. SİA xəbər verir ki, iclasda çıxış edən Samir Nuriyev işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış prosesinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin və ölkənin uzunmüddətli inkişaf strategiyasının əsas istiqamətlərindən biri olduğunu bildirib. Deyib ki, bu proses yalnız ərazilərin fiziki baxımdan bərpasını deyil, həmin torpaqlarda həyatın yenidən qurulmasını, dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunmasını və keçmiş məcburi köçkünlərin doğma yurdlarına ləyaqətli qayıdışını nəzərdə tutan kompleks yanaşmanı əhatə edir.***

Qərargah rəhbərinin sözlərinə görə, işğaldan azad edilmiş ərazilərdə son illər həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərində əsas prioritet baza infrastrukturunun yaradılması olub. Elektrik enerjisi, qaz və su təchizatı infrastrukturunun yenidən qurulması, yolların, körpülərin və tunellərin inşası regionda həyatın bərpası üçün ilkin zəruri şəraiti formalaşdırıb. Hazırkı mərhələdə isə dövlət tərəfindən ayrılan resursların mühüm hissəsi yaşayış fondunun genişləndirilməsinə, fərdi və çoxmənzilli evlərin tikintisinə və bərpasına yönəldilir. Bununla yanaşı, məktəblər, uşaq bağçaları, tibb məntəqələri və dövlət xidmətləri mərkəzləri kimi sosial obyektlərin fəaliyyətlərinin təşkili paralel şəkildə həyata keçirilir. Qeyd olunub ki, bu yanaşma öz doğma torpaqlarına qayıdan keçmiş məcburi köçkünlərin ilk gündən normal həyat şəraitinə sürətli adaptasiyasına imkan verir.

İşğaldan azad edilmiş ərazilərdə bu günədək ümumilikdə 41 yaşayış məntəqəsinin tikilərək və bərpa edilərək istifadəyə verildiyini, həmin ərazilərə keçmiş məcburi köçkünlərin qayıdışının təmin olunduğunu vurğulayan qərargah rəhbəri görülən işlər nəticəsində hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə ümumilikdə 80 mindən çox insanın yaşadığını və fəaliyyət göstərdiyini iclas iştirakçılarının diqqətinə çatdırıb. Qeyd edilib ki, qarşıdakı dövrdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri nəticəsində köç prosesi daha da sürətlənəcək və Böyük Qayıdış Proqramının miqyası genişlənəcək. Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə layihələrin icrası Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində həyata keçirilir. Proqramda nəzərdə tutulmuş tədbirlər ardıcıl şəkildə icra olunur, bu isə qarşıya qoyulan məqsədlərə mərhələli şəkildə nail olunmasına və bərpa-quruculuq prosesinin uğurla davam etdirilməsinə imkan yaradır.

S.Nuriyev vurğulayıb ki, məskunlaşmanın dayanıqlılığı birbaşa məşğulluq imkanlarının yaradılması ilə bağlıdır. Bu baxımdan yeni iş yerlərinin açılması, kənd təsərrüfatı, xidmət sektoru, istehsal, tikinti və logistika sahələrində fəaliyyət imkanlarının genişləndirilməsi, həmçinin sahibkarlığın təşviqi, investorların cəlb olunması və dəstək mexanizmlərinin tətbiqi mühüm əhəmiyyət daşıyır.

Qərargah rəhbəri tarixi, mədəni və dini abidələrin bərpasının Böyük Qayıdış prosesinin mühüm istiqamətlərindən biri olduğunu qeyd edərək, bunun milli-mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət daşıdığını bildirib.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin fəaliyyəti, habelə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində görülən işlər barədə məlumatlar təqdim olunub. Məskunlaşma, iqtisadi fəallığın artırılması, sahibkarlığın inkişafı və mədəni irsin bərpası istiqamətində aparılan işlərə dair məruzələr dinlənilib.

İclasın yekununda Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş strateji vəzifələrin səmərəli icrası üçün zəruri tədbirlərin vaxtında həyata keçirilməsinin vacibliyi vurğulanıb. Qeyd olunub ki, hər bir məsələ üzrə konkret addımlar atılmalı və verilmiş tapşırıqlar operativ şəkildə icra olunmalıdır.

İclasdan sonra Əlaqələndirmə Qərargahının üzvləri Xocavənd şəhərində təmir olunmuş fərdi evə baxış keçiriblər. Qərargahın üzvlərinə evdə yaradılan şərait barədə məlumat verilib. Əlaqələndirmə Qərargahının üzvləri Xocavənd rayonu ərazisində həyata keçirilən bərpa, infrastruktur və iqtisadi layihələrlə, o cümlədən Xocavənd şəhərinin Baş planı ilə tanış olublar. Qərargahın üzvləri eyni zamanda rayonun Quzeyxırman kəndində aparılan təmir-bərpa işləri ilə tanış olublar.

# Novruzaqədərki adət və mərasimlər: yaşadılanlar, unudulanlar...



***Xalqımızın çoxəsrlik tarixi qürur duyduğumuz milli-mənəvi dəyərlərlə, adət-ənənələrlə zəngindir. Onların hər birini xalq zaman-zaman yaradıb, qoruyub, nəsildən-nəslə ötürərək günümüzədək gəlib çıxmasına şərait yaradıb. Zəngin adətləri, mərasimləri olan Novruz bayramı da illərin sınağından keçib, 70 il sovet dövründə yasaq edilib, lakin xalqın evində, həyətində və qəlbində yaşatmaqla qorunduğu adət-ənənələrdən biridir.***

70 il sovet imperiyasının müstəmləkəsində olan bir xalq öz tarixini, milli adətlərini, mentalitetini çətinliklərlə üzləşə-üzləşə saxlaya bilmişdirsə, bu onun göstəricisidir ki, həmişə soy-kökünə sadiq olan azərbaycanlılar onu qorumağı bacarmışlar. Hələ imperiyanın 15 müttəfiqindən biri olan Azərbaycanı xüsusi məngənədə saxladığı, 70 ilin hər saatında, anında xalqımıza milli bayramlarını, adət-ənənələrini yasaq etdirməyə çalışdıqları, bunlardan bəhs edənlərin repressiyası kimi geniş mövzulara toxunsaq, deməyə haqqımız daha çox olar ki, Azərbaycan xalqı öz tarixi keçmişini, sözün əsl mənasında, qəhrəmancasına qorumuşdur. Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra milli dəyərlərimizə verilən qiymət onu millətimiz üçün daha əziz etmiş, illərlə gizli şəraitdə qoruyub saxladığımız bayramların ölkə səviyyəsində, elliklə qeyd olunmasına zəmin yaratmışdır. Ulu Öndərimiz deyirdi: "Elə vaxtlar, zamanlar olubdur ki, bu bayramı xalqımızın əlindən almaq istəyiblər, bu bayramı keçirməyə mane olmaq istəyiblər. XX əsrdə biz bu dövrü yaşamışıq. Ancaq Novruz bayramının o qədər dərin kökləri var, Azərbaycan xalqının, millətimizin qəlbində o qədər yerləşib ki, heç bir qüvvə, heç bir hakimiyyət, heç bir siyasi sistem bu bayramı Azərbaycan xalqının əlindən ala bilməyibdir".

## Dörd çərşənbə: dünən və bu gün

Vaxt var idi ki, elə ki, kiçik çillə çıxdı, öz yerini boz aya verdimi, Novruzaqədərki çərşənbələrlə yanaşı onların hər birinə məxsus adət-ənənələr də başlayardı. Adına "Yalançı çərşənbə", "Əzəl çərşənbə" də deyilən Su çərşənbəsi dörd çərşənbənin birincisidir. Onu gəlişi ilə buzlar əriyir, çayların donu açılır, torpaq ağaclarla birlikdə oyanır, hər yer yavaş-yavaş canlanmağa başlayır.

Elə ilk tonqal da bu çərşənbədə çatılardı. Sanki öz istiliyi ilə təbiətin oyanmasına kömək edərdi. Su çərşənbəsində səhər tezdən hər kəs evinə yaxın çay, bulağa gedər, suyun üzərindən atlanıb ağırlığın suya tökər, əl-üzlərini yuyar, evə qayıdarkən çərşənbə suyu gətirər, həyət-bacaya, əkin yerlərinə, toyuq hininə, mal-heyvan saxlanan yerə səpələyərdi ki, il ruzili gəlsin. Həmin sudan dibçək güllərinin də dibinə tökər, evin bəzi yerlərində şüşə qablarda çərşənbə suyu qoyulardı.

Evlərdə şirniyyatlar, yeməklər hazırlanar, axşam bayram süfrəsi açılar, ailə üzvləri süfrə başında toplaşar, şadyanalıqla yeyər-içər, deyib-gülərdi.

Xalq arasında adına "Xəbərçi çərşənbə", "Üskü çərşənbə" də deyilən Od çərşənbəsinin daxil olması ilə günəş yavaş-yavaş torpağı qızdırır, isindirir, onu yaratmaq üçün hazırlayır. Od çərşənbəsində də tonqallar qalayardılar. Hər kəs tonqal başına gələr, tonqalın istisində qışın soyuğunu unudar, deyir-gülər, şənlənərdi. Od çərşənbəsində evlərdə şirniyyatlar, yeməklər hazırlanar, bayram süfrəsi açılardı. Hər ailə üzvünün adına bir şam yandırılardı. Bayram xonçaları düzəldilərdi. Qadınlar "Səməni, saxla məni, ildə göyərdərəm səni" deyib buğda isladar, səməni qoyardı ki, torpaq çərşənbəsinə və Novruz bayramına qədər cücərib boy atsın, evləri, süfrələri bəzəsin.

Üçüncü çərşənbə adı Azərbaycanın bir sıra bölgələrində günümüzdə də "Ölü çərşənbə"si (Qara çərşənbə, Gül çərşənbə) kimi səslənən Yel çərşənbəsidir. Həmin gün insanlar yaxınlarının məzarlarını ziyarət edər, qəbirləri qışın palçığından, toz-torpağından təmizləyər, ölənlərin ruhuna dualar oxuyarlar. "Ölü çərşənbə"sində yaslı ailələr də ziyarət olunar, onların yasdan çıxması və qarşıdan gələn bayramı hamı ilə birgə qeyd etmələri təmin olunar.

Yel çərşənbəsinin özü ilə birlikdə gətirdiyi yel artıq azacıq oyanmış torpağı, təzəcə çıxmış yaza həsrət gülləri tərpədir, tumurcuqlanan ağacları yelləndir, sanki onlara həyat verməyə can atır.

Yel çərşənbəsində də həyətlərdə tonqal yandırılar. Bayram süfrəsi açılar.

Dördüncüsü çərşənbə Torpaqdır. Suyun təbiətə can verməsi, odun isitməsi, yelin onu yenidən hərarətə gətirməsi ilə ana təbiət oyanır, yeni mövsümə-Bahara qədəm qoymağa hazır olduğunu Torpaq çərşənbəsində sanki bəyan edir. Ona görə də ilk yaz əkinini xışlakotanla məhz torpaq çərşənbəsi günündə başlayardılar.

Adına İlaxır çərşənbə də deyilən Torpaq çərşənbəsi digər çərşənbələrdən fərqli olaraq daha təntənəli keçirilər, özünəməxsus ayin və mərasimləri ilə digər çərşənbələri geridə qoyardı. Bir çox regionlarda İlaxır çərşənbənin təntənəsi Novruzu belə üstələyərdi.

Bu çərşənbə mərasimləri sübh tezdən bulağa, çaya getməklə başlayır. İnsanlar bulaq başına, çay kənarına gələr, oradan su götürər, suyun üstündən atlanar, dərdini, arzusunu suya danışar və sudan dilək diləyərlər. Axır çərşənbənin gecə mərasimləri də dəbdəbəli keçirilir. Tonqallar çatılır, od üstündən tullanılır, uşaqlar qohum-qonşuya üz tutur, evlərə torba atılır, qız-gəlinlər qulaq falına çıxırlar.

Axır çərşənbədə evlərdə gözəl süfrələr açılır, şam yandırılır, xonça düzəldilir. Elobada camaatın gur yığışdığı və yaşadığı yerlərdə yumurta döyüşdürülür, digər xalq oyunları keçirilir. İnsanlar məişətdə və təsərrüfatlarda köklü yeniliklər edirlər.

Qız-gəlinlər bu çərşənbənin gəlişi münasibətilə bir neçə gün əvvəl ev-eşikdə təmizlik işlərinə başlayar. Ev-eşik silinib-təmizlənər, yorğan-döşək gün altına atılar, ev-eşikdə nə varsa suya çəkilər, qapı-baca açıq qoyular, evin havası dəyişilər. Kişilər də həyət-bacada əsaslı işə başlayarlar. Bağ-bağata əl gəzdirilər, həyət-baca səliqə-sahmana salınar. Bağ-bağatda ağacların qol-budağı budanar, artıq nə varsa yandırılar, ağacların dibi bellənər, əkin-biçin yerlərində torpaq daşlardan təmizlənər, yararlı yerlər əkilər.

## Novruz və Novruz adətləri

Çərşənbələr Novruz bayramını gətirir. Novruz isə ölkəmizdə daha təntənəli qeyd olunur. Dörd çərşənbənin hər birinin adətləri və mərasimləri də daxil olmaqla, böyük bir bayramla Novruz-yeni gün qeyd olunur. Baharın gəlişi təntənəli şəkildə qarşılanır. Novruz başdan-başa ruh yüksəkliyi, əmək coşqunluğu, torpağa, insana məhəbbət bayramıdır. Bu bayramda hamı özünə təzə paltar alar, təzə paltar tikdirər, qız-gəlin təzə çəkmə, qırmızı don geyərdi.

Gəlin, Novruz adətlərinə nəzər salaq, görək ki, bu xalq zaman-zaman bir bayram üçün nə qədər ayin, mərasim həyata keçirib, adət-ənənəni yaşadıb:

-Axır çərşənbədə uşağa beşik düzəldərlər.

-Axır çərşənbədə gün çıxmamış su üstündən atlanarlar.

-Axır çərşənbədə tonqal yandırarlar.

-Axır çərşənbədə qorxanların başından su töküb qorxuluğu alarlar.

-Axır çərşənbədə kəlin buynuzuna qırmızı bağlarlar.

-Axır çərşənbədə sağmal malın buynuzuna qırmızı bağlarlar.

-Axır çərşənbədə toy üçün ayrılmış qoyunların boynuna qırmızı bağlarlar.

-Axır çərşənbədə evdən pul verməzlər.

-Axır çərşənbədə qonşuya ələk verməzlər.

-Axır çərşənbə günü borc un verməzlər.

-Axır çərşənbə günü şam yandırarlar.

-Axır çərşənbə günü şamı yarımçıq söndürməzlər.

-Axır çərşənbə günü ailə üzvlərinin sayına görə şam yandırarlar.

-Axır çərşənbə günü evdən od, kibrit, neft verməzlər.

-Axır çərşənbə günü evdən ağartı verməzlər.

-Axır çərşənbə günü zahı üstünə getməzlər.

-Axır çərşənbə günü evdən çörək verməzlər.

-Axır çərşənbə gecəsi tez yatmazlar.

-Axır çərşənbə gecəsi evdə qazan asarlar.

-Axır çərşənbə gecəsi vəfat etmiş yaxın adamları yada salarlar.

-Axır çərşənbə gecəsi vəfat etmiş yaxın adamların adını çəkib "filankəslərin adına qazan asdım" deyib qazana bişmək üçün ət, yaxud düyü və s. tökərlər.

-Axır çərşənbə günü ertədən lampa yandırarlar.

-Novruza hazırlıq görərlər.

-Novruzda həyət-bacanı təmizləyərlər.

-Novruzda evləri şirələyər, paltar-palazı təmiz suya çəkərlər.

-Novruza qədər ağacların dibini bellərlər.

-Novruza qədər ağacların quru budaqlarını kəsib atarlar.

-Novruzda səməni göyərdərlər.

-Novruzda unnuq çəkərlər.

-Novruzda səməni halvası bişirərlər.

-Novruzda niyyət eləyərlər.

-Novruzda Novruz süfrəsi açarlar.

-Novruzda tonqal yandırarlar.

-Novruzda üzərrik yandırıb tüstüsünü mal-qaraya, oğul-uşağa, ev-eşiyə verərlər.

-Novruzda təzə paltar alarlar.

-Novruzda qız-gəlini təzə donla sevindirərlər.

-Novruzda ox atmağa hazırlaşarlar.

-Novruzda at çapmağa tədarük görərlər.

-Novruzda şənliklərə gedərlər.

-Novruzda Novruz xonçası bəzəyərlər.

-Novruzda yumurta boyayarlar.

-Novruzda qəmgin oturmazlar.

-Novruzda Novruz süfrəsi açarlar.

-Novruzda noğul, şəkər düzəldib süfrəyə qoyarlar.

-Novruzda qoz, fındıq alar, xonçaya və ya süfrəyə qoz ləpəsi ilə armud qaxı qoyarlar.

-Novruzda səməni göyərtmək düşməyən evə səməni apararlar.

-Novruzda damlarda çalğı düzəldərlər.

-Novruzda qız seçməyə çıxarlar.

-Novruzda qıza mətləb açarlar.

-Novruzda təzə paltar geyinərlər.

-Novruzda küsülü qalmazlar.

-Novruzda qohum-qardaş yığışıb qonaq gedərlər.

-Novruzda nişanlı qıza bayram payı aparlar.

-Novruzda söyüş söyməzlər.

-Novruz axşamı qarğış eləməzlər.

-Novruz günü ata-ananın qəbrini ziyarət edərlər.

-Novruz axşamı evdə ailə üzvlərinin sayına görə şam yandırarlar.

-Novruzda qeybət qırmazlar.

-Novruzda qohum-qardaşa, tanış-bilişə mehribanlıq eləyərlər.

-Novruz günü alver eləməzlər.

-Novruz günü başqası barədə pis söz danışmazlar.

## Bəs bu adətlərdən indi nə qalıb?..

Çox təəssüf hissi ilə qeyd edək ki, indi küçədə bir sorğu aparsaq, çərşənbələri ardıcıl şəkildə saya bilən az adam tapılar. Və onların adını belə bilməyən insan çərşənbələrə məxsus adətləri haradan həyata keçirəcək?..

Təəssüfedici haldır ki, illər öncəki çərşənbələrdən və Novruzdan çox az bir şey qalıb. Müasir dövrdə yeni-yeni bayramlar, əyləncələr çıxıb meydana. Xüsusilə əksər gənc internet dünyasındadır və çərşənbələrlə, Novruzla bağlı adətlərin nə olduğunu bilmir. Son illər çərşənbələrdə süfrə açmağı təxirə salmışıq. Qapılara uşaqlar papaq-torba atır, qapılarsa onların üzünə bağlıdır. Açılmır, açmırlar qapıları. Səməni satın alınır, çünki onu cücərtməyə ərinən qadınlar var. Novruzda qırmızı geyinən də ta yoxdur. Ailə üzvlərinə təzə paltar almaq çoxdan unudulub. Şəhərləri qoyaq bir kənara, deyən olar ki, burada imkanlar bir o qədər geniş deyil, indi çərşənbələrin hamısında heç kəndlərdə də tonqal qalanmır, süfrələr açılmır, hər çərşənbənin öz adəti yerinə yetirilmir.

İndi tək İlaxır çərşənbədə və Novruz bayramı günü bayram əhval-ruhiyyəsi hiss olunur. Bayram tətilində isə kəndlərə getmək, valideynlərlə bayramlaşmaq əvəzinə, ölkədaxili və xarici ölkələrə səfərlərə çıxırıq. Valideynlərimizlə "onlayn" bayramlaşırıq. Təbrik edirik və borcumuzu bitmiş hesab edirik. Lakin unuduruq ki, onların bu əziz günlərdə gözləri yolda qalır, övladlarını gözləyirlər. Onlar özləri valideynlərini Novruzda heç vaxt tək qoymadıqları, bir yaylıq, bir corabla onların könlünü şad etdikləri üçün öz övladlarından da bunu gözləyir. Yuxarıda Novruz adətlərini sadalamaqla yaddaşımızın korşalmış hissəni yeniləmək istədim. Hər birimiz bu adətlərə nəzər salaq. Görək bunlardan neçəsini edirik, neçəsini unutmuşuq. Lakin bir məsələni unutmayaq ki, bunların hər biri bizim milli dəyərlər toplusunun bir hissəsini təşkil edir. Gəlin bu adətləri olduğu kimi mənimsəyərək onlara qarşı çıxaq. İrili-xırdalı bir adətimizin belə aradan çıxmasına, ona ağılsız yanaşmalara yol verməyək. Bunları unutmağa haqqımız yoxdur.

***Mətanət Məmmədova***

***Novruz bayramı Azərbaycan xalqının, azərbaycanlıların ən əziz bayramıdır. Xalqımızın milli-mənəvi irsini özündə təcəssüm etdirən Novruz yeni günün, yeni arzuların, milli ruh və duyğuların bayramıdır. Novruz fəlsəfəsi cəmiyyətdaxili münasibətləri tənzimləyən, insanlar arasında səmimiyyəti, dialoqu önə çəkən yüksək dəyərləri ehtiva edir. Hər il müsəlman dünyasının həvəslə qarşıladığı və yola saldığı Novruz bayramı xalqın tarixi kökünü, adət-ənənələrini özündə yaşadır. Novruz sözünün etimologiyasına diqqət etsək, görərik ki, bu sözün həqiqi mənası yeni günün başlanması deməkdir. Bayramın qeyd olunmasına qədər, bildiyimiz kimi, dünyanın və insanın yaranması ilə bağlı müqəddəsləşdirilmiş su, od, yel və torpaq çərşənbələri qeyd olunurdu.***




# İlaxır çərşənbəsi

Xalqın erkən düşüncəsində yaratdığı çərşənbələrlə bağlı ayin və etiqadları, adət-ənənələri yaşatmaq hər kəsin mənəvi dünyasının tələbatından irəli gəlir. Novruz bayramı təbiətlə bağlı su, od, torpaq, yel ilə bağlı dörd əsas arxaik xüsusiyyətləri özündə saxlamaqla yanaşı, cəmiyyətdə humanist insani münasibətlərin məntiqini ifadə edən bəşəriliyilə seçilir. Novruzaqədərki yaxın 4 həftənin 2-ci günlərini-çərşənbələri ulularımız Su, Od, Yel və Torpaq Çərşənbəsi adlandırmışlar. Bu dörd çərşənbənin qeyd olunmasının arxasında böyük həqiqətlər dayanır. Bu gün qeyd etdiyimiz xalq arasında torpaq çərşənbəsi ”İlaxır Çərşənbə”, ”Yer Çərşənbəsi”, ”Çərşənbə-Suri” kimi də adlanan sonuncu çərşənbəmizi qeyd edirik. Torpaq çərşənbəsində torpağa istilik gəlir və bütün təbiət oyanmağa başlayır, otlar cücərir, ağaclar tumurcuqlayır ki, bu da baharın gəlişindən xəbər verir. Torpaq çərşənbəsi torpağın oyanmasının mifik kökləri etibarilə dirilmə, canlanma anlayışı ilə əlaqədardır. Dörd ünsürdən sonuncunun oyanması ilə Sel, Atəş, Yel və Torpaq daha böyük güc alır.

Qulaq falına çıxmaq, qapılara kisə və papaq atmaq bu bayramın tərkib hissələridir. Küsülüləri barışdırmaq, xəstələrə baş çəkmək, körpələrə yeni libas almaq da bu bayrama aid xüsusiyyətlərdəndir. Torpaq Çərşənbəsinə həm də Niyyət, Dilək Çərşənbəsi deyilir. İnanca görə, həmin gün ürəkdə tutulan xoş diləklərin hamısı hasil olur. Həmin gün mütləq xoş sözlər danışılmalıdır. Axı kimsə qulaq falına çıxıb, qapıya gələ bilər. Çərşənbə axşamı ailədə könül açan sözlər danışar, dava-dalaş etməzlər ki, qulaq falına çıxan şəxs xoşagəlməz ifadələr eşitməsin və evlərinə şən əhval-ruhiyyə ilə qayıtsın. Süfrənin əsas bəzəyi al-əlvan boyadılmış şadlıq rəmzi olan yumurta bir də baharın gəlişini əks etdirən Səmənidir. Novruz bayramı azərbaycanlıları Vətənə, ata-baba yurdları Azərbaycana, milli köklərə daha sıx bağlayır. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə milli-mənəvi dəyərlər, mütərəqqi adət-ənənələr cəmiyyətdə daha möhkəm əsaslarla intişar tapır, bu sıradan da xalqın milli bayramı olan Novruz yüksək səviyyədə qeyd edilir. Baharın gəlişini müjdələyən, xalqımızın qədim tarixə malik milli bayramı olan Novruzun Son Çərşənbəsi - ”İlaxır Çərşənbə” bu gün böyük ruh yüksəkliyi ilə qarşılanır.

## ”VAXT VAR İDİ Kİ, BU BAYRAM BƏZİ SƏBƏBLƏRDƏN QADAĞAN OLUNMUŞDU”

Dünya xalqları arasında milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutub. Uzun illər aparılan tədqiqatlar zamanı aydın olub ki, qədim köklərə malik Azərbaycan əsrlər boyu maddi və mənəvi xəzinəsini qoruyub saxlaya bilmişdir. Bu zəngin irsdə xalqın soykökünə bağlı olan adət-ənənələr yaşayaraq əsrimizə, yeni yüzilliyə qədər gəlib çatmışdır. Xalqın toy-büsat mərasimi, bayram adət-ənənələri, Novruz mərasimləri, yas mərasimləri onun milli-mənəvi dəyərlərini özündə yaşadır.

Bütün həyatını Azərbaycan xalqının rifahına və çiçəklənməsinə sərf etmiş Ümummilli Liderimiz, Ulu Öndərimiz Heydər Əliyevin sovet hakimiyyəti illərində Azərbaycana birinci rəhbərliyi dövründə xalqımızın yaddaşında özünə yuva qurmuş Novruz bayramı milli-mənəvi xüsusiyyətləri və dəyərləri özündə əks etdirməklə, dövlət səviyyəsində qeyd edilmiş, bununla da imperiyanın sərt qadağalarına baxmayaraq, milli bayramımız qorunaraq, nəsillərdən-nəsillərə ötürülməklə saxlanılmışdır. ”Vaxt var idi ki, bu bayram bəzi səbəblərdən qadağan olunmuşdu. Ancaq həmin onilliklə-ri biz hamımız bir yerdə yaşamışıq və hamımız da bilirik ki, heç kim bu qadağaya fikir verməyibdir və öz bayramını edibdir. Bu bayram elə bayramdır ki, özünün maddi vəziyyətindən asılı olmayaraq hər bir insan - zəngin adam da, orta yaşayan da, lap kasıb şəraitdə yaşayan insan da onu bayram edir. O illər ki, bizim bu ümumxalq bayramının keçirilməsinə imkan yox idi, hər kəsin evində mütləq səməni də, rənglənmiş yumurtalar da, plov da var idi. Ən azı bu idi, hər kəs bunu edə bilirdi”, - deyə Ulu Öndər qeyd edib.

## TONQALLAR ŞUŞADA, FÜZULİDƏ, ZƏNGİLANDA, LAÇINDA QALANIR

Ümummilli Liderimiz Heydər Əliyevin adət-ənənələrimizin və milli-mənəvi dəyərlərimizin qorunması sahəsində fəaliyyətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin göstərişi və tapşırığı əsasında hər il dövlət və milli bayramlarımız, xüsusilə, Novruz bayramımız ildən-ilə daha yüksək təmtəraqla qeyd edilərək, xalqımızın silinməz yaddaşına həkk olunmaqdadır. Novruz şənliklərində ölkə rəhbərliyinin şəxsən iştirak etməsi bayram təntənələrinə əlavə rəng qatmaqla yanaşı, eyni zamanda, hakimiyyət-cəmiyyət münasibətlərinə müsbət təsir edir.

Bu gün sevindirici və qürurverici bir haldır ki, xalqımız Novruz bayramını işğaldan azad olunan ərazilərimizdə, əzəli torpaqlarımızda qeyd edirik. ”Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır. Mən buna inanıram və bu inamla yaşayıram, bu inamla işləyirəm və bu inamla da Azərbaycan xalqına rəhbərlik edirəm”, - deyə Ulu Öndər bildirmişdir. Artıq Ulu Öndər Heydər Əliyevin söylədiyi fikirlər bir həqiqətə çevrildi. Tonqallarımız əzəli torpaqlarımızda qalanır, el-obamız bayramı qaşılayır. Qəlblərdə sevgi, torpaqda atəş yaşanır. Bu gün sonuncu çərşənbəni Torpaq Çərşənbəsini qeyd edirik. İllərdir arzuladığımız və böyük məsləkimizə qovuşduğumuz torpaqlarımızın işğaldan azad olunduğu torpaqlarımızda çərşənbəmizi qeyd edirik. Novruz ənənələri yenidən 30 ilə yaxın həsrətində olduğumuz doğma torpaqlarımızda yaşanılır, tonqallar qalanır, od-alov aləmə yayılır. Torpağımıza isti nəfəs gəlib, torpaq həsrətlə gözlədiyi sevincinə qovuşub. Torpaqlarımız dərindən nəfəs alır. Tarixdən boylanan zamanın daşlaşmış yaddaşında olan təbiətdən gələn yeni günü Qələbə tarixini yaşamış xalqımız böyük sevinclə qarşılayır. Torpaq çərşənbəsi bütün Azərbaycana firavanlıq bəxş etsin! Oyanan torpaq bütün xalqımıza ruzi bərəkət gətirsin! İlaxır çərşənbəniz mübarək!

***Zümrüd BAYRAMOVA***

# İranda müharibə, neftin qiyməti fontan vurur – qazanan Trampdır...

***“Açıq şəkildə bir fakt artıq ortadadır ki, idarəolunmaz hala gələn İran müharibəsi daha çox Donald Trampa və Rusiyaya milyard dollarlar qazandırır. Çünki müharibə üzündən Hörmüz boğazı və digər strateji ticarət yolları bağlandığı üçün artıq neftin bir barreli 104,6 dolları ötüb.***

Bu məsələdən Vladimir Putin də yaxşı qazanc əldə edir. Üstəlik, təsəvvür edin ki, D.Tramp özü ”Truth Social” sosial şəbəkəsində paylaşım edərək etiraf edir ki, neftin qiyməti qalxdıqca ABŞ hamıdan daha çox qazanır. Məqsədsiz müharibəni də nəzərə alsaq görürük ki, bu müharibə daha çox D.Trampın milyardlar qazanması üçün hazırlanıb, nəinki artıq kölgədə qalan “İranın zəiflədilməsi” planına görə. İran zəiflədimi bu müddətdə?-xeyr. Daxildən parçalandımı? – xeyr. Sadəcə, Xomenei və digər



*Mətləb Salahov: “Bəs nə oldu İranda sürətli rejim dəyişikliyi?- hamısı nağıldır”*

İran rəhbərlərinin öldürüldüyü iddia edildi, vəssalam”.Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov deyib. O diqqətə çatdırıb ki, ABŞ rəhbərləri artıq dünyada heç kimin inanmadığı və istehza ilə yanaşdığı ənənəvi ABŞ yalanı ilə guya İranın nüvə proqramını zərərsizləşdirmək üçün bu işə başlayıblar. “Vaxtı ilə ABŞ və müttəfiqləri İraqa soxulmaq üçün “Səddam Hüseyn nüvə silahı hazırlayır” bəhanəsi ilə hərəkət etdilər. Məlum oldu ki, ortada nə nüvə silahı var, nə də başqa səbəb.

Sadəcə, İraqın digər neft istehsal edən ərəb ölkələri üzərindəki nəzarətini qırmaq, Bağdadı gəlirli neft yataqlarından qovmaq üçün bu müharibəyə başladılar. İndi də İran müharibəsinin 17-ci günüdür. Amma ortada olan mənzərə odur ki, ABŞ və İsrail İranı bombalayır, İran da əvəzində daha çox ərəb ölkələrini viranə qoyur. Məqsəd bu idimi? Bəs nə oldu İranda sürətli rejim dəyişikliyi?-hamısı nağıldır. Bu müharibə beynəlxalq hüququn çoxdan zibil yeşiyinə atıldığını da hər kəsə göstərmiş oldu. Ortada olan həqiqət odur ki, bu müharibə dünya güclərinin daha çox milyardlar qazanması üçün qanlı əyləncədir, vəssalam”.

***Afət Tahirqızı***

# Epşteynin uşağı varmış!

2019-cu ildə ABŞ-da cinsi istismara görə həbsxanada vəfat edən uşaq istismarı ilə məşğul olan Ceffri Epşteyn (66) ilə bağlı dərc olunmuş iş materiallarından yeni fotolar ortaya çıxıb. FTB-yə ifadə verən zorakılıq qurbanlarından birinin ifadəsinə görə, Epşteynin bir uşağı varmış. Epşteyn sözügedən qurbana bir şəkli göstərərək “Bu heyrətamiz qadın mənim uşağımın anasıdır” deyib.



Epşteynin qardaşı isə deyir ki, onun övladı yoxdur. Bununla belə, Britaniya kral ailəsinin keçmiş üzvü Sarah Fergusonun Epşteyni 2011-ci ildə ata olması münasibətilə təbrik etdiyi elektron məktub da üzə çıxıb. İddialara görə, Epşteyn də uşaq istəyirmiş.

***Tərcümə-Mətanət Məmmədova***

***P.S.*** *Maraqlıdır, Epşteynin uşağı varmışsa, necə başqa uşaqlara bu münasibətlə yanaşa bilərdi? Əgər yox imişsə, görəsən, olardısa, yenə digər uşaqlara eyni münasibətdə olardı?..*

# Qazaxıstan yeni dəyişikliklər astanasında

## *Yeni Konstitusiya islahatları ölkəyə hədəflərinə nail olmağa imkan verəcəkmi?*

***Dünyada gedən siyasi, ictimai yeniliklər, demokratik dəyişikliklər bəzi ölkələri Konstitusiya islahatları aparmağa məcbur edir. Qazaxıstanda müasir dövrün tələblərinə uyğun olaraq ölkənin Konstitusiyasında yeni dəyişikliklər edir. Daha doğrusu, martın 15-də Qazaxıstanda ümumxalq referendum keçirildi. Hələ bir qədər əvvəl ölkə Prezidenti Kasım-Jomart Tokayev bununla bağlı müvafiq Fərman imzalamışdı. Baş tutan referendum Qazaxtstan cəmiyyəti üçün yenilik hesab olunur.***

Çünki referendum yolu ilə ölkə Konstitusiyasında bir sıra dəyişikliklər həyata keçirilir. Yeni Konstitusiya layihəsi siyasi partiyalar, ictimai təşkilatlar və ekspertlərdən daxil olan təkliflər nəzərə alınmaqla hazırlanıb. Konstitusiya layihəsinə görə, 145 deputatdan ibarət və yenilənmiş, genişləndirilmiş səlahiyyətlərə malik yeni birpalatalı Parlamentin — Kurultayın yaradılması nəzərdə tutulur. Kurultay proporsional seçki sistemi ilə formalaşdırılacaq, deputatların səlahiyyət müddəti isə 5 il olacaq. Yeni Konstitusiyanın layihəsində diqqətçəkən məsələlərdən biri də Vitse-prezident institutunun təsis edilməsi və milli dialoq üçün yeni platforma olan "Qazaxıstan Xalq Şurasının ( aza stan Xalı Ke es3) yaradılmasıdır.Artıq Qazaxıstanda ölkənin yeni konstitusiyası ilə bağlı referendumda səsvermə başa çatıb. Səsvermə "Layihəsi 12 fevral 2026-cı ildə mediada dərc olunmuş Qazaxıstan Respublikasının yeni Konstitusiyasını qəbul edirsinizmi?" sualı ilə keçirilib. Referendum iştirakçılarının siyahılarına ümumilikdə 12.461.796 vətəndaş daxil edilib.

Mərkəzi Referendum Komissiyasının məlumatına görə, bütün seçki məntəqələri bağlandıqdan sonra seçici fəallığı 73,24% təşkil edib. Səsvermə martın 15-dəyerli vaxtla saat 20:00-da başa çatıb. 12,4 milyondan çox vətəndaşdan 9.126.850 nəfər səs verib. Xarici KİV-lərə istinadən qeyd etmək olar ki, seçici fəallığı yüksək olub və insanlar azad şəkildə səsvermədə iştirak ediblər. Bir sıra ölkələrdə olduğu kimi, Azərbaycanda da seçki məntəqəsi yaradılıb. Qazaxıstanın Bakıdakı səfirliyində baş tutan yeni Konstitusiya ilə bağlı referendum çərçivəsində səsvermə martın 15-i yerli vaxtla saat 8:00-da başlayıb. Məlumata görə, qeydiyyatdan keçmiş 200 seçicidən 193-ü səsvermədə iştirak edib. Seçicilər arasında Azərbaycan universitetlərinin tələbələri, beynəlxalq təşkilatların əməkdaşları, eləcə də Beynəlxalq STEM Olimpiadasında iştirak etmək üçün Bakıya gələn qazaxıstanlı məktəblilərin valideynləri və müəllimləri, eyni zamanda ölkəmizdə sahibkarlıq fəaliyyəti ilə məşul olan şəxslər, turistlər olub. Səsvermənin sakit və qanunvericiliyin tələblərinə uyğun keçirildiyi bildirilir.

### Qəbul edilərsə, 1 iyul 2026-cı ildə qüvvəyə minəcək

Qazaxıstanın yeni Konstitusiyası ilə bağlı ümumxalq referendumunda seçici fəallığı 73,24% və ya 9.126.850 vətəndaş təşkil edib. Ölkənin Mərkəzi Referendum Komissiyasına istinadən xəbər verir ki, qanuna görə səslərin sayılması müddəti on iki saatdan çox olmamalıdır. İlkin nəticələr Mərkəzi Referendum Komissiyası tərəfindən elan ediləcək. İlkin məlumatlara görə, təklif olunan dəyişikliklərin qəbul edilməsinin lehinə 7.954.667 nəfər səs verib ki, bu da seçicilərin ümumi sayının 87,15%-ni təşkil edir. 898.099 vətəndaş əleyhinə səs verib. 146.558 bülleten etibarsız hesab edilib. İnsanların fəal olması onu deməyə əsas verir ki, cəmiyyət yeni dəyişikliklərin həyata keçirilməsini qəbul edirlər. Qazaxıstanınn tanınmış siyasi şərhçisi Janat Momınkulovun bildirib ki, Qazaxıstanda keçirilən referendum qlobal geosiyasi qarışıqlıq və keçirilən islahatlar fonunda vətəndaşların iradəsinin birbaşa ifadəsi üçün vacib bir mexanizmdir:




"Bu mexanizm hakimiyyətə strateji qərarlar üçün ictimai dəstək qazanmağa imkan verir və vətəndaşları ölkənin gələcəyi ilə bağlı müzakirələrə cəlb edir. Referendum nəticələri islahatların davamlılığını gücləndirə və uzunmüddətli transformasiyalara dəstəyi genişləndirə bilər".

Ölkə qanunvericiliyinə görə, əgər dəyişiklik MSK tərəfindən təsdiqlənsə o zaman 1 iyul 2026-cı ildə qüvvəyə minəcək. Yeni Konstitusiyaya əsasən, 30 avqust 1995-ci il Konstitusiyasına uyğun olaraq formalaşdırılan Parlament 2026-cı il iyulun 1-dən səlahiyyətlərini dayandırır. Kurultaya seçkilər Prezident tərəfindən bir ay ərzində elan edilməli və Konstitusiyanın qüvvəyə minməsindən sonra iki ay ərzində keçirilməlidir. Birinci çağırış Kurultayının birinci sessiyasının açılışından sonra iki ay ərzində Qazaxıstan Prezidenti Kurultayın razılığı ilə Vitse-prezident təyin etməlidir.

Təbii ki, Qazaxıstanın yeni demokratik dəyişiklikləri ölkənin inkişafına mühüm töhfələr verəcək. Həm də əhalinin hüquq və azadlıqlarının müdafiəsində, iqtisadi, sosial durumlarının daha da yaxşılaşmasında yeni islahatlar mühüm rol oynayacaq. Bu amil eyni dəyərlərə, ənənələrə malik olan Azərbaycan vətəndaşlarını məmnun edir. İki dost, qardaş ölkə arasında əlaqələr əksər ölkələrə nümunə ola biləcək mərhələyə qədəm qoyub.

### Azərbaycan ilə Qazaxıstan arasında əlaqələr dostluğa, qardaşlığa əsaslanır

Azərbaycanla Qazaxıstan arasında geniş əməkdaşlıq münasibətləri mövcuddur və bu əlaqələr hər ötən gün daha da dərinləşir. Bir qədər əvvəl Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin "Kazinform" agentliyinə verdiyi müsahibə dediyi kimi, Azərbaycan ilə Qazaxıstan arasında münasibətlər siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə tam gücü ilə inkişaf edir. Prezident İlham Əliyev müsahibədə onu da qeyd etmişdir ki, son onilliklər ərzində xalqlarımız arasında formalaşmış tarixi qardaşlıq, dostluq və ortaq türk kimliyi strateji tərəfdaşlığın əsasını təşkil edir: "Bu münasibətlər qarşılıqlı hörmət, ortaq dəyərlər, mədəni ənənələr və mənəvi yaxınlıq üzərində qurulub. İkitərəfli əlaqələrin davamlı inkişafında dövlət başçıları arasında olan fəal və konstruktiv dialoq mühüm rol oynayır".

Qazaxıstanla Azərbaycan arasında dostluğun, qardaşlığın daha bir nümunəsi Qazaxıstanın işğaldan azad edilmiş Füzuli şəhərində Uşaq İncəsənət Mərkəzini inşa etməsidir. İndiyədək iki ölkə arasında təxminən 170 sənəd imzalanıb. Onlar ikitərəfli əməkdaşlığın hüquqi bazasını və institusional mexanizmlərini möhkəmləndirir. Bu sənədlər arasında Azərbaycan ilə Qazaxıstan arasında Strateji Tərəfdaşlıq və Müttəfiqlik Münasibətləri haqqında Müqavilə xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan və Qazaxıstan BMT, Türk Dövlətləri Təşkilatı (TDT) və İslam Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq platformalarda da sıx əməkdaşlıq edirlər. Bu əlaqələr bundan sonra da davam edəcəyi şübhəsizdir.

***İLHAM ƏLİYEV***

# Azərbaycan-Avropa ittifaqı əməkdaşlığı

***Azərbaycan Avropa Birliyi ilə münasibətlərində daim beynəlxalq hüququn norma və prinsiplərinə, qarşılıqlı hörmət və bərabərhüquqluluq əsasında qurulan əməkdaşlığa üstünlük verir. Bu mövqe imzalanan sənədlərdə və diplomatik danışıqlarda ardıcıl şəkildə əksini tapıb. Ölkəmizlə Avropa Birliyi arasında mövcud olan tərəfdaşlıq münasibətləri bütövlükdə Cənubi Qafqazın geosiyasi gələcəyi üçün çox əhəmiyyətlidir.***

O cümlədən, 2026-cı il martın 11-də Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın Azərbaycana səfəri də ölkəmizlə Avropa İttifaqı arasında əməkdaşlığın inkişafı baxımından mühüm hadisə kimi yadda qaldı. Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə keçirilən görüş və verilən bəyanatlar tərəflər arasında siyasi dialoqun daha da möhkəmləndiyini və qarşılıqlı əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu göstərdi. Dövlət başçımız bəyanatında Azərbaycanın regionda sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunmasına daim töhfə verdiyini xüsusi vurğulayaraq qeyd etdi ki, ölkəmiz beynəlxalq hüququn prinsiplərinə əsaslanaraq regional əməkdaşlığın genişlənməsinə və qarşılıqlı etimad mühitinin möhkəmləndirilməsinə böyük önəm verir. Bu baxımdan Avropa İttifaqı ilə münasibətlərin inkişafı Azərbaycanın xarici siyasətinin vacib istiqamətlərindən biri hesab olunur.

Görüş zamanı enerji təhlükəsizliyi məsələsi də xüsusi diqqət mərkəzində olub. Prezident İlham Əliyev Azərbaycanın Avropanın etibarlı enerji tərəfdaşı olduğunu da vurğulayaraq bildirib ki, ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Xüsusilə təbii qazın Avropa bazarlarına çatdırılması və enerji layihələrinin genişləndirilməsi sahəsində əldə olunan uğurlar Azərbaycan–Avropa İttifaqı əməkdaşlığının strateji əhəmiyyətini daha da artırır.

Bəyanatda həmçinin regional sülh gündəliyi də geniş şəkildə müzakirə olunub. Azərbaycan rəhbərliyi Cənubi Qafqazda davamlı sülhün bərqərar olması üçün konstruktiv mövqeyini bir daha nümayiş etdirib. Prezident İlham Əliyev ölkəmizin sülh təşəbbüslərinə sadiq olduğunu və regionda uzunmüddətli sabitliyin təmin olunması istiqamətində səylərini davam etdirəcəyini bildirib. Səfər çərçivəsində aparılan müzakirələr göstərib ki, Azərbaycan ilə Avropa İttifaqı arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üçün geniş perspektivlər mövcuddur. Tərəflər həmçinin qarşılıqlı maraqlara əsaslanan münasibətlərin inkişaf etdirilməsi, yeni layihələrin həyata keçirilməsi və tərəfdaşlığın daha da dərinləşdirilməsi istiqamətində birgə fəaliyyətin vacibliyini də vurğulayıblar. Bu baxımdan Antonio Koştanın Azərbaycana səfəri və aparılan müzakirələr iki tərəf arasında strateji tərəfdaşlığın gələcək inkişafı üçün mühüm mərhələ kimi qiymətləndirilə bilər.

Beləliklə, Avropa İttifaqı Şurasının



**İman ABDUYEV, politoloq**

Prezidenti Antonio Koştanın Azərbaycana səfəri və Prezident İlham Əliyevin verdiyi bəyanat ölkəmizin beynəlxalq mövqeyinin daha da möhkəmləndiyini, Azərbaycanın regionda sülhün və əməkdaşlığın təşviqində mühüm rol oynadığını bir daha nümayiş etdirdi. Bu səfər həm də Azərbaycan ilə Avropa İttifaqı arasında qarşılıqlı etimada əsaslanan münasibətlərin gələcək inkişafı üçün mühüm siyasi platforma yaratdı.

# Bakı Ağırlaşdırıcılar ASC-nin 2025-ci il üçün balans hesabatı və Audit rəyi

" Bakı Ağırlaşdırıcılar " Açıq Səhmdar Cəmiyyətinin
Balans Hesabatı
31 dekabr 2025-ci il tarixinə
*Azərbaycan Manatı ilə məbləğlər tam məbləğə qədər yuvarlaqlaşdırılıb*

| | Qeyd | 2025 | 2024 |
|---|---|---|---|
| AKTİVLƏR | | | |
| *Uzunmüddətli aktivlər* | | | |
| Torpaq, tikili və avadanlıqlar | | 2.004.216 | 2.016.493 |
| CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR | | 2.004.216 | 2.016.493 |
| *Qısamüddətli aktivlər* | | | |
| Ehtiyatlar | | 440.967 | 553.908 |
| Qısamüddətli debitor borcları | | 268.445 | 426.248 |
| Digər qısamüddətli debitor borclar | | 0 | 0 |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 2.352.826 | 1.669.092 |
| Sair qısamüddətli aktivlər | | 14.960 | 106.934 |
| CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR | | *3.077.198* | *2.756.182* |
| CƏMİ AKTİVLƏR | | 5.081.414 | 4.772.674 |
| KAPİTAL | | | |
| Ödənilmiş nominal (Nizamnamə) kapitalı | | 1.903.032 | 1.903.032 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 991.560 | 733.247 |
| Əlavə kapital | | 2.108.236 | 2.108.236 |
| CƏMİ KAPİTAL | | 5.002.828 | 4.744.515 |
| ÖHDƏLİKLƏR | | | |
| *Qısamüddətli öhdəliklər* | | | |
| Qısamüddətli kreditor borcları | | 13.211 | 8.965 |
| Vergi və sair məcburi ödənişlər üzrə borclar | | 65.375 | 19.193 |
| CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | *78.586* | 28.159 |
| CƏMİ ÖHDƏLİKLƏR | | 78.586 | 28.159 |
| CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | 5.081.414 | 4.772.674 |

" Bakı Ağırlaşdırıcılar " Açıq Səhmdar Cəmiyyətinin
MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HESABATI (xərclərin xüsusiyyəti üzrə)
31 dekabr 2025-ci il tarixinə
*Azərbaycan Manatı ilə*

| | Qeyd | 2025 | 2024 |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | | 1.868.250 | 2.382.629 |
| Satışın maya dəyəri | | (343.577) | (754.525) |
| Ümumi mənfəət | | 1.524.673 | 1.628.104 |
| Sair əməliyyat gəlirləri | | 17.525 | |
| Sair əməliyyat xərcləri | | (8.627) | 237 |
| Maliyyə gəlirləri | | 76.583 | 69.806 |
| Maliyyə xərcləri | | | |
| Ümumi və administrativ xərclər | | (365.971) | (1.188.076) |
| Əməliyyat mənfəəti (zərəri) | | 1.244.183 | 509.597 |
| Vergitutmadan əvvəl mənfəət (zərər) | | 1.244.183 | 509.597 |
| Mənfəət vergisi | | (248.837) | (101.919) |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | 995.346 | 407.677 |

İDARƏ HEYƏTİNİN SƏDRİ M.ALIEV
Baş mühasib X.Novruzova

" Bakı Ağırlaşdırıcılar " Açıq Səhmdar Cəmiyyətinin
PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI
31 dekabr 2025-ci il tarixinə

| | 2025 | 2024 |
|---|---|---|
| Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti | | |
| Xalis mənfəət /(zərər) | 995.346 | 407.677 |
| İnvestisiya və maliyyələşmə fəaliyyətində aid olanlar | (8.898) | |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər (amortizasiya) | 20.426 | 58.093 |
| Dövriyyə kapitalında dəyişikliklər: | | |
| Ehtiyatlar üzrə (artım)/azalma | 112.940 | (16.322) |
| Əməliyyat debitor borclarında və gələcək dövrün xərclərində (artım)/azalma | 157.803 | (63.800) |
| Digər debitor borclaında (artım)/azalma | 0 | 0 |
| Sair qısamüddətli aktivlərdə (artım)/azalma | 91.973 | (73.142) |
| Əməliyyat kreditor borclarında artım/(azalma) | 4.246 | 1.167 |
| Vergi və sair məcburi ödənişlər üzrə artım | 46.181 | (185) |
| Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | 1.420.019 | 313488 |
| İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti | | |
| Uzunmüddətli maddi və qeyri maddi aktivlərin əldə edilməsi | (16.776) | (72.465) |
| Əsas vəsaitlərin təqdim edilməsindən gəlir | 17.525 | |
| Kapiatllaşdırmada olan aktivlərə çəkilmiş xərc | | |
| İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | 749 | (72.465) |
| Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti | | |
| Verilmiş dividendlər | (732.678) | (1240.000) |
| Kapital ehtiyyatlarından istifadə | (4.356) | (16.812) |
| Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti | (737.034) | (1.256.812) |
| Pul vəsaitlərinin və bank overdraftlarının xalis artması (azalması) | 683.734 | (1.105.789) |
| İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları | 1.669.092 | 2.684.881 |
| İlin sonuna pul vəsaitləri və bank overdraftları | 2.352.826 | 1.669.092 |

" Bakı Ağırlaşdırıcılar " Açıq Səhmdar Cəmiyyətinin
KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI
31 dekabr 2025-ci il tarixinə
*Azərbaycan Manatı ilə*

| | Nizamnamə Kapitalı | Bölüşdürülməmiş mənfəət | Əlavə kapital ehtiyyatları | Cəmi Kapital |
|---|---|---|---|---|
| 01.01.2024-cü il tarixə qalıq | 1.903.032 | 1.582.382 | 2.108.236 | 5.593.650 |
| 2024-cü il üzrə xalis mənfəət | | 407.677 | | 407.677 |
| Verilmiş dvidentlər | | (1.240.000) | | (1.240.000) |
| Xalis mənfəətdən digər istifadə | | (16.812) | | (16.812) |
| 31.12.2024-cü il tarixə qalıq | 1.903.032 | 733.247 | 2.108.236 | 4.744.515 |
| 2025-ci il üzrə xalis mənfəət | | 995.347 | | 995.347 |
| Verilmiş dvidentlər | | (732.678) | | (732.678) |
| Xalis mənfəətdən digər istifadə | | (4.356) | | (4.356) |
| 31.12.2025-ci il tarixə qalıq | 1.903.032 | 991.560 | 2.108.236 | 5.002.828 |

İDARƏ HEYƏTİNİN SƏDRİ M.ALIEV
Baş mühasib X.Novruzova

SƏRBƏST AUDİTOR
ALIYEV KÖÇƏRİ ƏMRAH OĞLU
MÜSTƏQİL AUDİTORUN HESABATI (RƏY)

AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI 1995

**"Bakı Ağırlaşdırıcılar" ASC-nin İdarə heyətinə**

Mən "**Bakı Ağırlaşdırıcılar**" ASC-nin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyəti,mənfəət və zərər,məcmu gəlirlər , kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları ASC-nin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir (*və ya düzgün və ədalətli təsəvvür yaradır*).

Audit təqdim olunmuş sənədlər əsasında aparılmışdır. Təqdim olunmuş sənədlərin düzgünlüyünə təsərrüfat subyektinin rəhbərliyi məsuliyyət daşıyır.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatım "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq ASC-dən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının BAS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır. Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik ASC-ni ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik ASC-nin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər ASC-nin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Sərbəst auditor: K. Ə. Alıyev
Tarix: 12.03.2026

M.Y.

Bakı şəhəri, Nizami küç. 102
Mob: (050) 372 18 53



*Mərasim evləri — adətən mərasim (yas, dəfn sonrası ehsan), toy kimi rəsmi və ailəvi tədbirlərin keçirildiyi yerlərdir. Xüsusilə yas mərasimlərində çadırlardan ziyadə mərasim evlərinin istifadəsi artıb, çünki bu məkanlar həm tədbirin təşkilinə rahatlıq gətirir, həm də ətrafdakı məkan problemlərini aradan qaldırır (məsələn, həyətdə çadır qurulması ilə bağlı məhdudiyyətlər). SİA mövzu ilə bağlı araşdırma edib.*

# Toy qiymətinə yas süfrəsi – qiymət bahalaşmasının səbəbi nədir?

### Mərasim evlərində yas menyusu və qiymətlər

**Adambaşına menyu**

Bakı mərasim evlərində adambaşına menyu qiymətləri adətən 9–12 AZN civarındadır. Bu əsas menyuya daxil olur:çay, halva, limon, şirniyyatlar, salat, dovğa və plov.

**Yeməyə əlavələr**

İstəklərə görə menyuya əlavə olunabilən yeməklər:

-meyvə

-bozbaş

-dolma

Bu əlavələr adambaşına təxminən +2–8 AZN qədər əlavə xərc tələb edir.

Sadə menyu ilə 200 nəfərlik mərasim təxminən 2 050 AZN civarına başa gəlir.

Tam menyu və əlavələrlə bu məbləğ 2 850–4 050 AZN kimi yüksək rəqəmlərə çata bilər.

### Əlavə xidmətlər

Molla xidmətləri üçün adətən 50 AZN kimi sabit xərc hesablanır. Zalda çiçəklər, dekorasiya, xidmət personalı kimi əlavə xərclər də ola bilər.

### Mərasim evləri kirayəsi və xidmətlər

Mərasim evlərinin zal kirayə haqqı adətən 300–400 AZN aralığındadır, zalın ölçüsündən və qonaq tutumundan asılı olaraq dəyişir. Böyük zal (200+ nəfər) adətən nisbətən aşağı adambaşına menyu qiyməti ilə təklif olunur, çünki marjinal xərc daha çox qonaq sayına paylanır.

### Niyə mərasim evləri bu qədər bahadır?

**Artan tələb**

Son illərdə insanlar yas mərasimləri üçün çadırlardan çox mərasim evlərinə üstünlük verir. Bu da tələb artımına səbəb olur və qiymətlərə təsir göstərir.

### Komfort üstünlüyü

Mərasim evləri tədbirin təşkilini tam şəkildə özünə götürür — süfrə hazırlanması, qonaqların yerləşdirilməsi və xidmət işləri daha rahatdır. Bu da müvafiq olaraq xərclərin artmasına səbəb olur.

### Qiymətlərin şadlıq sarayları ilə yaxınlaşması

Əvvəllər mərasim evlərində menyular ucuz olduğu üçün fərqlənirdi, amma son illərdə 10+ AZN adambaşı qiymətlər adi hala çevrilib və bəzi hallarda 20 AZN-dən yuxarı menyular da mövcuddur. Toyların bəzən restoran və şadlıq saraylarında qiymətlər Yas menyusuna nisbətən çox yüksək olur, çünki toy üçün menyular bahalı yeməklər, bəzək və əyləncə xərcləri də nəzərə alınır.

Mərasim evləri son illərdə Azərbaycanda, xüsusən Bakı şəhərində yas mərasimlərinin keçirilməsi üçün çadırlardan daha çox seçilir, bu da həm xidmət səviyyəsinə, həm də qiymətlərə təsir edir. Adambaşı menyu qiymətləri ortalama olaraq 9–20 AZN arasında dəyişir və buna çay, plov, salat, şirniyyatlar kimi ənənəvi süfrə elementləri daxildir. Dəyişikliklərə görə menyuya əlavə də daxil etmək mümkündür, lakin bu əlavə xərc yaradır.

### Azərbaycan reallığı

Azərbaycanda yas mərasimləri təkcə dini və mənəvi borc deyil, eyni zamanda ciddi maliyyə yükünə çevrilib. Xüsusilə mərasim evlərində:

• Adambaşına menyu (10–20 manat),

• Zal icarəsi,

• Əlavə yeməklər və xidmətlər

ailələri minlərlə manat xərclə üz-üzə qoyur.

Bir çox hallarda yas süfrələri toy menyusuna yaxınlaşdırılır, sadə ehsan anlayışı arxa plana keçir. Sosial təzyiq ("ayıb olar", "camaat nə deyər") bu xərcləri daha da artırır.

### Dünyada vəziyyət necədir?

**Türkiyə**

Yas mərasimləri əsasən evdə və ya məscid həyətində keçirilir. Yemək bələdiyyələr və ya icmalar tərəfindən pulsuz və ya simvolik şəkildə verilir. Ailə üzərinə kommersiya yükü qoyulmur.

**İran**

Əsas diqqət dua və mərasimə yönəlir. Yemək sadə olur və çox vaxt icma dəstəyi ilə təmin edilir. Bahalı menyular sosial baxımdan qəbul edilmir.

**Avropa ölkələri**

Yas mərasimlərində yemək mərkəzi element deyil. Çox zaman yalnız çay, qəhvə, yüngül ikram verilir. Xərclər minimum səviyyədə saxlanılır, kommersiyalaşma yoxdur.

Dünya təcrübəsi göstərir ki, yas mərasimlərinin bahalı menyularla keçirilməsi nə dini, nə də sosial baxımdan zəruridir. Əksinə, bu yanaşma ailələrin ağrılı günündə onlara əlavə psixoloji və maliyyə yükü yaradır. Azərbaycanda da bu məsələyə ictimai müzakirə, etik çərçivə və hətta tənzimləmə mexanizmləri lazımdır.

***Ayşən Vəli***



*"Yaxın Şərqdə münaqişənin şiddətlənməsinin onuncu günündən bəri regionda milyonlarla uşaq üçün vəziyyət fəlakətli hala gəlir. 28 fevraldan bəri zorakılıqda 1100-dən çox uşağın yaralandığı və ya öldürüldüyü bildirilir. Buraya İranda öldürüldüyü bildirilən 200, Livanda 91, İsraildə dörd və Küveytdə bir uşaq daxildir. Zorakılıq gücləndikcə və yayıldıqca bu rəqəmlər artacaq". - bu açıqlama UNİSEF-in rəsmi saytında dərc edilib.*

# UNİSEF: "200 milyon uşaq dünyadan tələb edir ki..."

Açıqlamada daha sonra bildirilir: "Təhsilə geniş yayılmış müdaxilə regionda milyonlarla uşağı məktəbdən kənarda qoyub, yüz minlərlə uşaq isə amansız bombardmanlar nəticəsində didərgin düşüb. Uşaqların sağ qalması üçün vacib olan xəstəxanalar, məktəblər, su və kanalizasiya sistemləri də daxil olmaqla mülki infrastruktur münaqişə tərəfləri tərəfindən hücuma məruz qalıb, zədələnib və ya dağıdılıb. Uşaqların öldürülməsinə və şikəst edilməsinə, yaxud uşaqların asılı olduğu vacib xidmətlərin məhv edilməsinə və pozulmasına heç nə haqq qazandırmır."

"Silahlı münaqişədə uşaqlara qarşı ciddi zorakılıqlar beynəlxalq humanitar hüquq və beynəlxalq insan hüquqları qanunu da daxil olmaqla beynəlxalq hüququn pozulması hesab edilə bilər. UNICEF Baş katibin münaqişə tərəflərini döyüşlərə son qoymağa və diplomatik danışıqlara başlamağa çağırışını təkrarlayır. UNICEF həmçinin tərəfləri mülki şəxslərə zərəri minimuma endirmək üçün müharibə vasitələri və metodlarının seçilməsində bütün zəruri tədbirləri görməyə, o cümlədən uşaqlara qeyri-mütənasib təsir göstərən partlayıcı silahların istifadəsindən çəkinməyə çağırır. "Regiondakı 200 milyon uşaq dünyanın tez bir zamanda bu məsələyə reaksiya verəcəyinə ümid edir." - deyə açıqlamada bildirilir.

Qeyd edək ki, bu günədək müharibələrdə ölən uşaqların dəqiq ümumi sayı yoxdur, çünki bir çox müharibədə bütün qurbanlar tam qeyd olunmur. Amma BMT və UNICEF-in rəsmi məlumatları bəzi təxmini rəqəmlər verir. Ümumi dünya statistikasına görə 2005–2022-ci illər arasında dünyada müharibələr nəticəsində ən azı 120 000 uşaq öldürülüb və ya ağır yaralanıb Bu rəqəm BMT tərəfindən təsdiqlənmiş məlumatdır. Bu itki təxminən gündə 20 uşaq deməkdir. Həmin dövrdə müharibələrdə uşaqlara qarşı 315 000-dən çox ciddi hüquq pozuntusu qeydə alınıb.

Son illərdə alovlanan bəzi müharibələrdə uşaqların gördüyü rəqəmlər də tam dəqiq deyil, Qəzza müharibəsində təxminən 13 000-dən çox uşaq öldürüldüyü, Ukrayna müharibəsində 2022-dən sonra təxminən 2000 uşağın öldüyü və ya yaralandığı barədə informasiyalar var.

Yaxın Şərq və Şimali Afrika münaqişələrində son illərdə 20 000-ə yaxın uşaq öldürülüb.

Məlumat üçün bildirək ki, dünyada 473 milyon uşaq münaqişə olan bölgələrdə yaşayır Bu dünyadakı hər 5 uşaqdan biri deməkdir. Bu uşaqların çoxu evsiz qalır, məktəbə gedə bilmir,

aclıq və xəstəliklə üzləşir.

Müharibələri böyüklər edir, amma ən çox uşaqlar zərər görür. Trixin ən sarsıdıcı müharibələri də daxil olmaqla bu qarşıdurmalarda günahsız uşaqlar öldürülür, evsiz və sahibsiz qalır. Tarixçilərin hesablamalarına görə II Dünya Müharibəsində (1939–1945-ci illər aralığında)

ölən təxminən 60–70 milyon insandan 1,5–2 milyonu uşaq olub. Xüsusilə mülki ərazilərin bombardmanlarında, aclıq səbəbindən və əsir düşərgələrində çox uşaq ölüb. Həmçinin 1941-1945 müharibəsində 900 gün mühasirədə qalan Leninqradın həlak olan 1 milyondan çox sakini arasında çox sayda oluq vardı.

O cümlədən, 2011-ci ildən bəri Suriyada 30 mindən çox uşağın öldürüldüyü bildirilir. 2014-cü ildən bəri Yəməndə 10 mindən çox uşaq həlak olub və ya hökm sürən vəziyyətə görə humanitar yardımdan uzaq qalaraq aclıqdan ölüb. İraqda, Vyetnamdakı vəziyyətlər də minlərlə uşağın ölməsinə səbəb olub. 1945-ci ilin avqustunda Hiroshima və Nagasaki şəhərlərinə atılan atom bombaları nəticəsində çoxlu sayda uşaq həyatını itirib, hər iki şəhərdə 30 mindən çox uşaq həlak olub, minlərlə uşaq xəstə doğulub, radiasiyanın təsirindən sonrakı həyatında onkoloji xəstəliklərə yoluxub.

**Lalə Mehralı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Yeni dünya nizamı: yeganə seçim III Dünya müharibəsidirmi?

*Bu ilin yanvar ayında İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda görünməmiş bir hadisə baş verdi. Müzakirələr adətən iqlim dəyişikliyi və parlaq gələcək ətrafında cərəyan etsə də, bu dəfə qapalı qapılar arxasında hamının qaçılmaz olduğuna razı olduğu köhnə dünya nizamının sonu müzakirə edildi.*



1945-ci ildən sonra yaranan quruluşa baxdıqda aydın olur ki, Çin dünyanın fabrikinə çevrilib, Yaponiya faiz dərəcələrini sıfır səviyyəsində saxlayaraq və qlobal iqtisadiyyata likvidlik təmin edərək kreditor rolunu öz üzərinə götürüb, Avropa əsas alıcı və istehlakçı olub, məhsuldarlığını və hərbi qüdrətini sabitlik və sosial rifah üçün dəyişdirib və ABŞ bütün bu quruluşu işlək vəziyyətdə saxlayan, baş usta rolunda çıxış edir. Onlar hərbi-sənaye kompleksinin gücü ilə dəstəklənən dünyanın ehtiyat valyutası olan neft dollarlarına nəzarət edirlər.

Nəticədə aşağıdakı vəziyyət yaranıb: bir ölkə ticarət etmək və iqtisadiyyatını inkişaf etdirmək üçün pul almaq istəyirsə, qaydalara razılaşmalıdır. Və qaydalar belədir: dollardan enerji almaq üçün istifadə edin və ABŞ-ın maraqlarına zidd getməyin. Bu sistem yüksək və orta gəlirli amerikalılar üçün faydalıdır və investorlar da mənfəət əldə edirlər. Lakin, bütün iş yerləri əsasən digər ölkələrə həvalə edildiyi üçün ABŞ əhalisinin aşağı gəlirli təbəqələrinə zərərlidir. Bu, Amerikanın mal istehsalını dayandırmasına və faktiki olaraq digər ölkələrdən asılı vəziyyətə düşməsinə səbəb olub. ABŞ-ın yaratmağa davam etdiyi yeganə şeylər pul və texnologiyadır. Uzun müddətdir ki, dünya belə işləyir. Kağız üzərində bu sistem bu gün də mövcuddur, lakin ekspertlər onun qaçılmaz olaraq sonuna doğru getdiyinə inanırlar.

Bu gün öz sistemini yaratmaq məqsədi daşıyan dövlətlərin bütöv koalisiyaları mövcuddur. Onlar artıq elə bir güc qazanıblar ki, köhnə sistem açıq şəkildə onların altına girməyə başlayır. Artıq heç kimi qaydalara riayət etməyə məcbur etmək mümkün deyil. Yeganə seçim heç kimə fayda verməyən III Dünya Müharibəsidir. Məhz buna görə də bu ilin yanvar ayında Davos İqtisadi Forumunda real gücə malik olanlar faktiki olaraq etiraf etdilər: oyun bitdi. Qloballaşma ABŞ və Qərbin gözləntilərini doğrultmadı. İndi dünya köhnə dünya nizamının süqutunun bütün nəticələri ilə üzləşir.

Məsələn, Yaponiya kapitalı geri qaytarmağa və ABŞ Xəzinədarlıq istiqrazlarını satmağa məcburdur. Çin, Hindistan və bir çox başqa ölkələr də eyni şeyi edirlər. Bu, dolları zəifledir və bu da daimi, sonsuz tələb tələb edir. Avropa da çətin bir dərs alıb: enerji baxımından digər ölkələrdən asılı olsanız və təhlükəsizliyinizi autsorsinqə həvalə etsəniz, sadəcə qaydaları diktə etmək üçün real gücünüz yoxdur. Davos Forumundakı əsas sual belə idi: Bu yeni dünya nizamında gücü necə bölmək olar?

Müasir dünyada dörd güc mərkəzi yaranıb. Birinci qrup, dörd konkret nəhəngin rəhbərlik etdiyi maliyyə qlobalistləridir: BlackRock, Vanguard, J.P. Morgan və State Street. Birlikdə onlar on trilyonlarla dolları idarə edirlər. Onlar haqqında bilməli olduğunuz əsas şey, qlobal proseslərə təsir etmək üçün qanunlar qəbul etməyə və ya orduları idarə etməyə ehtiyac duymamalarıdır.

İkinci oyunçu qrupu birinci dərəcəli suveren dövlətlərin liderləridir. Sadə dillə desək, nüvə silahına malik ölkələrin liderləridir. Onlar qloballaşma oyununda qalib gəlməyə çalışmırlar. Onlar üçün aydın təsir konturlarına malik güclü bir dövlət yaratmaq daha vacibdir.

Üçüncü qrup texnokratlardır. Onlar suveren dövlətlər və qlobalistlər arasındakı qarşıdurmaya əsasən laqeyd yanaşırlar; onları başqa şeylər — səmərəlilik, miqyas və şəbəkə strukturları maraqlandırır.

Nəhayət, dördüncü qrup hərbi-sənaye kompleksidir. Əsasən, bu, gücü kobud gücə və kəşfiyyat xidmətlərinə əsaslanan sistemin güc strukturudur.

Hər dörd qrupun məqsəd və istəklərinin fərqli olduğunu təxmin etmək çətin deyil. Maliyyə-sənaye kompleksi pul və kapitalın likvid, sürətli və idarəolunan qaldığı bir dünya arzulayır. Öz növbəsində, birinci dərəcəli dövlətlərin liderləri tam əksini istəyirlər. Onların məqsədi qlobal siyasi masada oturmaq və öz resursları üzərində nəzarətdir. Onların ideal dünyası öz enerji, qida, sənaye və təhlükəsizlik sahələrinə nəzarət etdikləri bir dünyadır.

Texnokratlardakı istəklərə gəldikdə isə, onlar siyasi rəhbərlikdə kimin olmasının fərqinə varmırlar. Onlar dövlət müqavilələri, məlumatlar və öz dövriyyələri ilə maraqlanırlar. Bunun müqabilində onlar tələb olunan hər şeyi yaratmağa hazırdırlar. Gələcəyin konturları artıq olduqca aydındır: dünya real gücün rəqəmsal maliyyə axınlarını idarə edənlərin və resursları idarə edənlərin əlində qalacağı bir sistemə keçir. Bəs dünənki liderlər bu nizama harada uyğunlaşacaqlar? Məsələn, enerji müstəqilliyini itirən Avropa qaydaları diktə etmək qabiliyyətini birdəfəlik itirmək riski ilə üzləşir və ABŞ özünü paradoksal vəziyyətdə tapıb. Amerika maliyyə korporasiyaları yeni bir sistemin qurulmasına rəhbərlik edərkən, dövlətin özü və iqtisadiyyatı müstəsnalığını getdikcə itirir.

**V.VƏLİLİ**

SƏS

17 mart
2026-cı il

# Ramazan namazı bu tarixdə qılınacaq



***Ramazan bayramının tarixi Şəvval ayının hilalının görünməsindən asılı olaraq böyük ehtimalla 20 marta təsadüf edəcək. Bu barədə mediaya Qafqaz Müsəlmanları İdarəsindən məlumat verilib.***

"Qazılar Şurasının Fitvasına görə adambaşına 10-15 manat fitrə zəkatının verilməsi tövsiyə olunur. Fitrə canın sədəqəsidir və imkanı olan müsəlmanın ailəsinin hər bir üzvü üçün fitrə zəkatı çıxarması, imkansızlara, ehtiyacı olan ailələrə verməsi vacibdir. Bu, hər bir ailəyə bayram ovqatı yaşamağa imkan yaradır. Azərbaycanın bütün məscidlərində bayram namazları qılınacaq. Bakıda Əjdərbəy məscidində bayram namazının vaxtı saat 08.00, Təzəpir məscidində isə 09.00-a təyin edilib", - QMİ-dən bildirilib.

# Bu şəxslər 2 min manatadək cərimə EDİLƏCƏKLƏR

***Qrant alınması və ya verilməsi haqqında qanunvericiliyin pozulmasına görə yeni cərimlər müəyyənləşəcək. Bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, İnsan hüquqları komitələrinin martın 12-də keçirilən videokonfrans formatında birgə iclasında müzakirə olunan İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb.***




Mövcud qanunvericiliyə əsasən, Azərbaycan Respublikasının resipiyentləri, yaxud banklar və digər ödəniş xidməti təchizatçıları tərəfindən "Qrant haqqında" Qanunla müəyyən edilmiş qaydada qeydiyyata alınmamış qrant alınması (verilməsi) haqqında müqavilələr (qərarlar) üzrə bank əməliyyatlarının və hər hansı digər əməliyyatların aparılmasına görə vəzifəli şəxslər 2 500 manatdan 5000 manatadək məbləğdə, hüquqi şəxslər 5000 manatdan 8000 manatadək məbləğdə cərimə edilir. Qanun layihəsinə əsasən, eyni əmələ görə fiziki şəxslər 1000 manatdan 2000 manatadək məbləğdə cərimə ediləcək.

## ELAN

**Dövlət Vergi Xidməti tərəfindən Kənan Quluzadə Tariyel oğluna təqdim edilmiş AR 061462 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.**


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Narkomaniya və digər asılılıqların artması sosial köklərlə bağlıdırmı?

SOSİOLOQ DANIŞDI



"Son illərdə narkotik maddələrdən istifadə, alkoqolizm və digər zərərli vərdişlərin yayılması cəmiyyət üçün ciddi problemlər yaratmaqdadır. Bu cür asılılıqlar təkcə fərdin sağlamlığına deyil, həm də ailə münasibətlərinə, sosial rifaha və ümumi ictimai təhlükəsizliyə mənfi təsir göstərir. Mütəxəssislər bildirirlər ki, asılılıqların artması müxtəlif sosial, psixoloji və iqtisadi səbəblərlə bağlıdır". Bu sözləri SİA-ya açıqlamasında sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyev deyib.

Ekspert sözlərinə belə davam edib: "Asılılığa gətirib çıxaran əsas amillərdən biri valideyn nəzarətinin kifayət qədər olmamasıdır. Valideynlər övladlarının dost çevrəsinə, gündəlik fəaliyyətlərinə və davranışlarına diqqət yetirməlidirlər. Nəzarətsiz qalan yeniyetmələr zərərli vərdişlərə daha tez meyl göstərə bilirlər. Psixoloji gərginlik, həyat çətinlikləri və gələcəyə ümidsizlik insanları yanlış yollara sürükləyə bilir. Depressiyaya düşən şəxslər bəzən çıxış yolunu narkotik maddələrdə və spirtli içkilərdə axtarırlar. Lakin bu vasitələr problemi həll etmir, əksinə insanı daha ağır psixoloji və sosial uçuruma aparır.

Orta məktəblərdə zərərli vərdişlərin fəsadları barədə maarifləndirici tədbirlərin və profilaktik işlərin yetərincə aparılmaması da risk faktorlarından biridir. Gənclər narkotiklərin və alkoqolun sağlamlığa vurduğu zərərlər haqqında dolğun məlumat əldə etmədikdə, təhlükənin miqyasını düzgün dərk etmirlər. Ailədə asılılığı olan şəxsin mövcudluğu digər ailə üzvləri üçün də risk yaradır. Belə hallarda zərərli vərdişlər adi davranış kimi qəbul edilə bilər. Bundan əlavə, narkotik istifadəçiləri bəzən yaxın dostlarını,ailə üzüvlərini və tanışlarını da bu yola cəlb etməyə çalışırlar.

Son dövrlərdə sintetik narkotik vasitələrin sayının artması, onların əlçatan olması və nisbətən ucuz qiymətə satılması asılılıqların yayılmasını sürətləndirən əsas amillərdəndir. Bu maddələr xüsusilə gənclər arasında daha təhlükəli tendensiya yaradır. Narkomaniya və digər zərərli vərdişlərin yayılması tibbi, psixoloji, sosial və iqtisadi faktorların birgə təsiri nəticəsində baş verir. Bu problem yalnız fərdin zəifliyi kimi qiymətləndirilməməlidir. Cəmiyyətin sosial vəziyyəti, ailə münasibətləri, təhsil səviyyəsi və iqtisadi çətinliklər də asılılıqların artmasında mühüm rol oynayır. Asılılıqlarla mübarizə aparmaq üçün maarifləndirmə tədbirlərinin gücləndirilməsi, ailə nəzarətinin artırılması, gənclərin sağlam həyat tərzinə təşviqi və sosial problemlərin həlli vacibdir".



***Günel Fərzəliyeva***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**

**Tiraj: 2000**